Ədalət 2019.- 19 noyabr.- S.8.



*Lilpar Cəmşidqızı*

Dayanıb kim gecələr etsə nəzər Sumqayıta,
Görəcək layla çalır mavi Xəzər Sumqayıta.

Necə bax, naz eləyir göydəki Ulduzla Aya,
Gecələr Ulduzunu Göy də düzər Sumqayıta.

Qoşulub bir-birinə, ağ ləpələr rəqs eliyər,
Öpərək sahilini bir-bir üzər Sumqayıta.

Bir Corat kəndi idi, bir də ki boz çöllər idi,
Yetmiş il öncə verilmişdi şəhər Sumqayıta.

Tikdilər zəhmət ilə, eylədilər şəhr onu,
Belə zəhmətlər ilə doğdu səhər Sumqayıta.

Öndədir təhsili, həm zirvədə tutmuş o yeri ,
Yazdılar oğlu qızı həm də zəfər Sumqayıta.

İndi baxdıqca baxırsan, düzülüb yan-yana ev,
Çalışıb İnsan özü verdi bəhər Sumqayıta.

Küçələr gör nə gözəldir, hələ bir bulvara bax,
Sevinər dostu olan gəldimi hər Sumqayıta.

Neçə illərdi sevir Lilpar onu torpağıtək,
O səbəbdənmi yazıb böylə əsər Sumqayıta?

***

Eşqin yükün əlbəttə hər aşiq çəkə bilməz,
Memar evi rəsm etməsə, bənna tikə bilməz.

Bağbanda əgər torpağa olmazsa məhəbbət,
Körpə fidanı naz ilə heç vaxt əkə bilməz.

Göylərdə əgər tək-tək olub dolsa buludlar,
Leysanə dönüb yer üzünə sel tökə bilmız.

Səyyad ovuna fənd eləyib bəndə salarsa,
Ahu dolaşıb dağ-dərəni, bil, səkə biməz.

Aşiq duya öz yarına könlündə məhəbbət,
Eşqin təməlin əlləşə, bir kəs sökə bilməz.

Tək əllə köməksiz, dayanaqsız olacaqsan,
Birlikdə olan əlləri bir güc bükə bilməz.

Lilpar eləyib zəhmət ilə hər işi asan,
Gər çəksədə zillət yenə haram tikə, bilməz.

***

Geri dönməzsən əgər, qəsd edərəm canə, inan,
Nə olar rəhm elə gəl, bax, ürəyim yarə, qayıt.

Neçə loğmanə dedim, dərdimə dərman aradım,
Dedilər sənsən əzəldən mənə bir çarə, qayıt.

Bir ürək vermiş idim, tərk eləyib getdin onu ,
Sən gedəndən ürəyim oldu parə-parə, qayıt.

Yanıram, odlanıram mən axı eşqinlə dedim,
Yenə pərvanə olub gəl geri bu narə qayıt.

Məni kim gördü dedi, yanma belə odlarə,
Sən od olsan o sudur, dön geri, bir yarə qayıt.

Bu məhəbbət məni ağlatdı, saraldım, soldum,
Dözməyir, bax ürəyim böylə ahu-zarə, qayıt.

Darıxır bax yenə könlümdə yerin, sənsizdir,
Gəldi hicran gecəsi, saldı məni darə, qayıt.

Yenə küsdürdüm onu, dönməsə vallah ölərəm,
Gedin ol yarə deyin, ölməsə Lilparə qayıt.